# DAĞLIQ ŞİRVAN İQTİSADİ RAYONU MƏRKƏZLƏŞDİRİLMİŞ KİTABXANA SİSTEMLƏRİNDƏ OXUCULARA İNFORMASİYA XİDMƏTİNİN TƏŞKİLİ

**S.Ə.CƏFƏRLİ**
***Bakı Dövlət Universiteti***
***Biblioqrafiyaşünaslıq kafedrasının dissertantı***

*Məqalədə Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində oxuculara informasiya xidmətinin təşkilindən bəhs edilir. Məqalədə həmçinin kitabxanalara dair sərəncam və dövlət proqramlarının bu regionda oxuculara informasiya xidmətinin inkişafına və kitabxanaların avtomatlaşdırılmasına təsirindən danışılıb.*

***Açar sözlər:*** *Dağlıq Şirvan, informasiya xidməti, Oxucu sorğuları, İnformasiya cəmiyyəti, virtual kitabxana*

Məlum olduğu kimi, keçmiş zamanlardan müasir dövrümüzədək kitabxanalar “sənəd”, “oxucu”, “Kitabxanaçı” tərkib hissələrinin qarşılıqlı əlaqəsi nəticəsində inkişaf etmişdir. Və bu əlaqənin nəticəsində böyük kitabxana informasiya xidməti mübadiləsi yaranır ki, onun da keyfiyyəti ümumbəşəri elmin, mədəniyyətin inkişafına zəmin yaradır. Kitabxanalarda oxuculara informasiya xidməti dedikdə burada oxucuların müxtəlif sorğularının ödənilməsi, onların sorğu və tələbatlarının istiqmətləndirilməsi nəzərdə tutulur. Bu proses əsasən abonoment və qiraət salonlarının vasitəsi ilə həyata keçirilir və bu prosesdə kitabxanaların öhdəsinə böyük məsuliyyət düşür, belə ki, peşə və yaş qrupuna görə oxucuların özünəməxsus maraq və tələbatlarının ödənilməsi çox vacibdir. Bir çox kitabxanalarda əsasən də özündə bir çox kitabxanaları birləşdirən Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində oxuculara xidmət məsələlərinə böyük önəm verilir. Belə kitabxana sistemlərindən Dağlıq Şirvan iqtisadi rayonunun Mərkəzləşdirilmiş kitabxana sistemlərini göstərmək olar. Bu diqqətin əsas səbəbi kimi müstəqillik dövründə oxucuların kitabxana-informasiya resurslarına tələbatının yalnız böyük şəhərlərdə deyil, həmçini dağlıq və rayon ərazilərində də artması ilə əlaqələndirmək olar.

Dağlıq Şirvan Mərkəzləşdirilmiş Kitabxana Sistemlərindən biri olan Şamaxı rayon kitabxana sistemi özündə 52 kitabxananı birləşdirib və nəzdində 6 şöbə fəaliyyət göstərən böyük bir müəssisədir. Burada əsas olaraq oxucuların marağının öyrənilməsinə, kitab təbliğinə və oxuculara informasiya xidmətinin təşkilinə diqqət verilir.

Oxuculara informasiyanın tam dolğun şəkildə ötürülməsi üçün kitabxana bir çox işlər görmüşdür. Buna təkan verən hadisələrdən biri də Azərbaycan

Respublikasının Prezidentinin 12 yanvar 2004-cü il tarixli, 56 saylı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı olmuşdur. Belə ki, bu sərəncamın həyata keçirilməsi məqsədilə kitabxanaya 57370 nüsxə kitab hədiyyə olunmuşdur. Və bu kitablar haqqında oxuculara informasiya verilməsi üçün müxtəlif sərgilər, təqdimatlar keçirilmişdir. Müxtəlif kitab hədiyyələrinin nəticəsində hal-hazırda kitabxananın fondu 430877 nüsxə, oxucuların sayı 33436 nəfər, kitab verilişi isə 717264 nüsxədir.

Kitabxana sistemində oxuculara kitabxana informasiya xidmətinin təşkili yalnız ənənəvi deyil, həm də son zamanlar informasiya texnologiyalarının inkişaf etməsi ilə əlaqədar olaraq internet vasitəsilə də həyata keçirilir.

Kitabxana Sistemində Kitabxana İnformasiya Mərkəzi fəaliyyət göstərir. Burada oxuculara müxtəlif informasiya xidmətlərinin göstərilməsi üçün çox işlər görülmüşdür.

2008-ci ildə təsdiqlənmiş "Kitabxana haqqında Dövlət Proqramı"na daxil olan Dövlət Proqramının məqsəd və vəzifələri bəndində göstərilən:

- "İnformasiya cəmiyyəti", "Biliklər cəmiyyəti" Azərbaycan modelinin qurulması prosesinə yardım göstərilməsi;
- Elektron informasiya fondlarının formalaşdırılması və virtual kitabxanaların inkişaf etdirilməsi, "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın oxucuların istifadəsinə verilməsi;
- Elektron kataloq və elektron kitabxanaların yaradılması işinin təmin edilməsi, onların müasir standartlar səviyyəsinə çatdırılması;
- Kompyuterləşdirilmiş kitabxana infrastrukturunun qurulması, kitabxanaların yeni informasiya texnologiyaları ilə təchiz edilməsi

Müddəaların həyata keçirilməsini vacib tutaraq Şamaxı Mərkəzləşdirilmiş Kitabxana Sistemi bu sahədə bir çox irəliləyişlər əldə etmişdir. Kitabxana sistemində oxuculara kitabxana informasiya xidmətinin təşkili yalnız ənənəvi deyil, həm də son zamanlar informasiya texnologiyalarının inkişaf etməsi ilə əlaqədar olaraq internet vasitəsilə də həyata keçirilir.

Buna zəmin yaradan amillərdən kitabxananın bir çox yeni informasiya texnologiyaları ilə təmin olunmasını göstərmək olar ki, bu da kitabxananın oxuculara informasiya xidmətinin daha mükəmməl təşkilinə və inkişaf etdirilməsinə böyük təkan verir. Belə ki, kitabxana İRBİS-64 avtomatlaşdırılmış elektron kataloqla işləyir. 2010-cu ildən isə avtomatlaşdırılmış kitabxana informasiya sisteminə dəyişikliklər edilmiş, yeni versiya quraşdırılmış və sistemin virtual müşahidə olunmasına nail olunub. Fonda daxil olan 53 min nüsxədən artıq kitab, dövri mətbuat elektron kataloqa daxil edilmişdir. Bundan əlavə informasiya xidməti işi sahəsindəki vacib





irəliləyişlərdən biri kimi, kitabxanada olmayan kitabları müxtəlif kitabxanalardan əldə edib oxuculara çatdırılmasını göstərmək olar.

Özündə 49 kitabxana birləşdirən İsmayıllı Mərkəzləşdirilmiş Kitabxana Sistemində də kitabxana informasiya xidmətinin təşkili və inkişafı öndə gedən məsələlərdən biridir. Bu məsələlərin inkişafı birbaşa olaraq Respublika Prezidentinin verdiyi qanun və sərəncamlarla bağlıdır. Bu sərəncamlardan biri 2004-cü il sərəncamıdır ki, bu sərəncamın sayəsində latın qrafikalı ədəbiyyat üstünlük təşkil etmişdir. Bunun da nəticəsi olaraq kitabxanada oxucularının sorğu və tələbatlarının ödənilməsi daha da asanlaşmışdır. Sərəncamla bağlı olaraq İsmayıllı Kitabxana Sisteminə də bir cox kitablar hədiyyə olunmuşdur. Bunun sayəsində kitabxananın fondu 3201-dən artaraq hal hazirda 32455 təşkil edir. Oxucuların sayı isə artaraq 20155-ə çatmışdır. Burada xidmət sahəsində oxu zallarının rolu danılmazdır. Lakin xidmət işinin ənənəvi həyata keçirilməsi ilə yanaşı, həm də internet vasitəsilə də həyata keçirilir. Bunun təsdiqi kimi, kitabxananın 2013-cü ildən elektron kataloqa keçməsini göstərmək olar. Kitabxana artıq 2 ildir ki, İRBİS-64 avtomatlaşdırılmış elektron kataloqla işləyir və bu virtual kitabxana vasitəsilə oxuculara uzaq məsafədən daha da mükəmməl informasiya xidmətinin göstərilməsinə imkan yaradır. Hətta kitabxananın öz fondunda olmayan kitabları internet vasitəsilə Prezident kitabxanası və M.F.Axundov adına Milli kitabxana kimi böyük şəhər kitabxanalarından əldə edib oxucularının informasiya təlabatlarının ödəmək imkanı vardır.

Ümumiyyətlə, kitabxanalarımızın virtual kitabxana sistemlərinə keçidi və inkişafı "İnformasiya cəmiyyəti" adlanan bu dövrümüzdə oxucuların maraq, sorğu və tələbatlarının ödənilməsində əvəzolunmaz rol oynayır.

## ƏDƏBİYYAT

1. *"Kitabxana haqqında Dövlət Proqramı", 2008*
2. *"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı, 2004*
3. *Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik.2 cilddə.C.1. Bakı :BDU, 2003, 314 s.*
4. *S.M.Rzayev. Kitabxana xidməti. Dərslik. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2012.- 276 s.*
5. *www. Shamaxi-mks.az*
6. *www.ismayilli-mks.webs.com*

# ORGANIZATION OF INFORMATION SERVICE TO THE READERS IN THE CENTRALIZED LIBRARY SYSTEMS OF UPPER SHIRVAN ECONOMIC REGION

**S.A.JAFARLI**

***SUMMARY***

*The article deals with organization of information service to the readers in the Centralized Library Systems. The article describes the impact of orders and state programs concerning the libraries on automation of libraries in the region and information service to the readers and its development*

***Key words:*** *Upper shirvan, information service, poll of readers, information society, virtual library*

# ФОРМИРОВАНИЕ ИНФОРМАЦИОННЫХ УСЛУГ ЧИТАТЕЛЯМ В СИСТЕМАХ ЦЕНТРАЛИЗОВАННЫХ БИБЛИОТЕК ГОРНОГО ШИРВАНСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА.

**С.А.ДЖАФАРЛИ**

***РЕЗЮМЕ***

*В статье говорится об формированиях информационных услуг читателям в системах централизованных библиотек. В статье также рассказывается об влияние распоряжений и государственных програм-мах об библиотек к развитию информационных услугам читателям и автоматизации библиотек в этом регионе*

***Ключевые слова***: *Горной ширван, информационная услуга, опросы читателей, информационное общество, виртуальная библиотека*